1_Layout 1 29.11.2017 11:57 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 23 (514)
30 noyabr
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO-nun ŞİMALİ ATLANTİKA ŞURASININ İCLASINDA İŞTİRAK EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Şimali Atlantika Şurasının iclasında əvvəlcə NATO-nun baş katibi Yens Stoltenberq çıxış etdi. Sonra o, sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi. Ölkəmizin NATO-nun müxtəlif missiya və əməliyyatlarında fəal iştirak etdiyini vurğulayan Prezident İlham Əliyev NATO-nun, öz növbəsində, Azərbaycanda ərazilərin minalardan təmizlənməsi işində fəal iştirak etdiyini bildirdi. Qeyd olundu ki, Azərbaycan Əfqanıstandakı sülhməramlı fəaliyyətini genişləndirir və bu ölkə ilə ikitərəfli səviyyədə iqtisadi və digər sahələrdə əməkdaşlığı həyata keçirir.

Prezident İlham Əliyev Azərbaycan-Avropa İttifaqı münasibətlərinə toxundu, əməkdaşlığın uğurla inkişaf etdiyini və onun müxtəlif sahələri əhatə etdiyini bildirdi.

Azərbaycanda demokratik inkişaf məsələlərindən danışan Prezident İlham Əliyev ölkəmizdə azad internet, söz, toplaşma və digər azadlıqların təmin edildiyini vurğuladı. Ölkəmizdə iqtisadi inkişaf məsələləri və bu sahədə həyata keçirilən genişmiqyaslı islahatlar barədə danışan dövlətimizin başçısı qeyd etdi ki, 2004-cü ildən bəri Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə, həmçinin işsizlik səviyyəsi 5 faizə düşüb, xarici borcumuz ümumdaxili məhsula nisbətən 20 faizdən də aşağı səviyyədədir.

Prezident İlham Əliyev Azərbaycanın dünyada multikulturalizm mərkəzlərindən birinə çevrildiyini, ölkəmizdə multikulturalizmin, tolerantlığın təmin olunduğunu və bununla bağlı bir sıra mühüm tədbirlərin keçirildiyini bildirdi. Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdiyini, Davos Dünya İqtisadi Forumunun ölkəmizin iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünya dövlətləri arasında 37-ci yerdən 35-ci yerə layiq görüldüyünü qeyd edən dövlətimizin başçısı təhsil, infrastruktur, nəqliyyat və digər sahələrdə əldə olunan uğurlardan danışdı.

Prezident İlham Əliyev Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu qeyd etdi, "Cənub Qaz Dəhlizi" layihəsindən danışdı, TANAP və TAP layihələrinin uğurla icra edildiyini bildirdi və Azərbaycanın uzun illər bundan sonra da Avropanın etibarlı qaz təminatçısına çevriləcəyini dedi. Bakı-Tbilisi-Qars dəmiryolunun əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu yolun Asiya ilə Avropa arasında ən qısa yol olduğunu dedi, Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb arasında mühüm tranzit qovşağına çevrildiyini vurğuladı.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə geniş toxundu, Ermənistanın ölkəmizin 20 faiz torpaqlarını, o cümlədən Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal etdiyini vurğuladı. Ermənilərin həmin ərazilərdə törətdikləri hərbi cinayətlər, Xocalı soyqırımı, günahsız insanların qətlə yetirilməsi və etnik təmizləməyə məruz qalması barədə ətraflı danışan dövlətimizin başçısı ATƏT-in faktaraşdırıcı missiyalarının da işğal olunmuş ərazilərdə dağıntıları qeydə aldıqlarını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnaməsi icra edilmir və Ermənistan status-kvonu saxlamaq niyyətindədir. Prezident İlham Əliyev NATO-nun Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğuladı.

Sonra bir çox ölkələrin səfirləri çıxış etdilər və Azərbaycanın NATO-nun missiyalarında fəal rolundan danışdılar, ölkəmizin Əfqanıstana göstərdiyi yardımı və oradakı missiyada iştirakını yüksək qiymətləndirdilər, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini qeyd etdilər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxundular və münaqişənin həllinin zəruriliyini bildirdilər.

Sonda dövlətimizin başçısı NATO-dakı səfirlərin suallarını cavablandırıb.

****

Belçika Krallığında işgüzar səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə noyabrın 24-də Şərq Tərəfdaşlığı Sammitində iştirak edib.

Dövlətimizin başçısı Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyasında iştirak etmək üçün Avropa İttifaqının binasına gəldi.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk, Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker və Avropa İttifaqına sədrlik edən Estoniyanın Baş naziri Yuri Ratas dövlətimizin başçısını salamladılar.

Sonra Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyası oldu.

Prezident İlham Əliyev sessiyada çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı:

Cənab Prezident,
Xanımlar və cənablar.

İlk növbədə demək istərdim ki, Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Bu ilin fevralında biz yeni sazişlə bağlı fəal danışıqlara başladıq. Ümidvaram ki, bu danışıqlar tezliklə başa çatacaq. Bu, ölkələrimiz arasında əməkdaşlığı davam etdirmək üçün imkanlar yaradacaq.

Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin demək olar ki, 50 faizini üzv ölkələrlə olan ticarət təşkil edir. Müstəqillik dövründə Avropa İttifaqından Azərbaycan iqtisadiyyatına 20 milyard dollardan çox investisiya yatırılıb. Bu, bizim yaxşı investisiya mühitinə malik olduğumuzu nümayiş etdirir. Avropa şirkətləri bizim iqtisadiyyatımızı dəstəkləmək üçün çox maliyyə vəsaiti yatırmağa hazırdır.

Eyni zamanda, biz üzv dövlətlərlə ikitərəfli formatda əlaqələrimizi fəal şəkildə inkişaf etdiririk. Avropa İttifaqına üzv ölkələrin üçdə biri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bu, gənc müstəqil ölkə üçün çox vacibdir. Azərbaycan siyasi və iqtisadi islahatlar siyasətini davam etdirir. Biz demokratiyanın inkişafı, insan haqlarının qorunmasına böyük önəm veririk və buna ciddi şəkildə sadiqik.

Eyni zamanda, biz iqtisadiyyatımızı dəyişdiririk. Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı həm də bizim müstəqilliyimiz üçün güclü təməldir. İqtisadi cəhətdən müstəqil olanda, sözsüz ki, daha müstəqil xarici siyasət yürütmək olar. Bizim yaxşı kredit reytinqlərimiz var. Davos Dünya İqtisadi Forumu iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyinə görə ölkəmizi 35-ci yerə layiq görüb.

Bizim üzləşdiyimiz əsas çağırış torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdirilməsidir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin demək olar ki, 20 faizi 20 ildən çoxdur, Ermənistanın işğalı altındadır. İşğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib və biz etnik təmizləmə siyasətinə məruz qalmışıq. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının bizim ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Onlar Ermənistan tərəfindən yerinə yetirilmir. XXI əsrdə separatizm, təcavüzkar separatizm qəbul edilə bilməz. Separatizmin bütün formaları pislənməlidir. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir və bərpa olunmalıdır.

Enerji siyasəti bizim Avropa təsisatları ilə yaxından əməkdaşlıq etdiyimiz məsələlər arasındadır. Cənub Qaz Dəhlizi uğurla inkişaf edir. Bu layihənin dəyəri 40 milyard ABŞ dollarından artıqdır. Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir və bu, qarşıdakı onilliklərdə Avropaya təbii qaz nəql etmək üçün yetərli olacaq.

Azərbaycanın qonşuları ilə birgə həyata keçirdiyi daha bir əhəmiyyətli təşəbbüs ötən ay açılışı olmuş Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən, bununla da Asiya ilə Avropa arasında yeni nəqliyyat əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmiryoludur. Bu, qarşılıqlı ticarət dövriyyəsini artıracaq.

Azərbaycan insan kapitalına da böyük sərmayə yatırıb. Savadlılıq səviyyəsi 100 faizə yaxındır və təhsilli insanlar bizim islahatlarımız üçün əsas aparıcı qüvvə, radikalizmə və dini ekstremizmə qarşı əsas qarantdır.

Azərbaycan dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir.

****

Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyası başa çatandan sonra birgə foto çəkdirildi.

Sonda dövlət və hökumət başçılarının şərəfinə işçi nahar verildi.

Həmin gün Prezident İlham Əliyevin Brüsselə işgüzar səfəri başa çatıb.

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Noyabrın 24-də Daxili İşlər Nazirinin birinci müavini polis general-leytenantı Vilayət Eyvazov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Zubair Hayatın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əməkdaşlığın genişlənməsinə hər zaman xüsusi önəm verdiyini, Pakistanın müstəqilliyimizi tanıyan ilkinci ölkə, beynəlxalq aləmdə və regional təşkilatlar çərçivəsində Azərbaycanı birmənalı şəkildə dəstəklədiyini diqqətə çatdırıb.

Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun səmimi salamlarını qonağa çatdıran nazirin birinci müavini dost və qardaş, strateji müttəfiq olan iki dövlət arasında əlaqələrin qədim tarixə və dərin köklərə malik olduğunu xatırladaraq, Daha sonra o, qonağa Daxili İşlər Nazirliyinin funksional vəzifələri və fəaliyyət istiqamətləri, ölkəmizdəki mövcud kriminogen durum barədə qısa məlumat verib, həyata keçirilən islahatlardan danışıb, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində ötən illər ərzində uğurlu nəticələrin əldə edildiyini, sabitliyin, əmin-amanlığın etibarlı şəkildə qorunduğunu, belə təhlükəsiz şəraitdən vətəndaşlarımız kimi ölkəmizdə fəaliyyət göstərən əcnəbilərin də yararlandığını qeyd edib.

Polis general-leytenantı V.Eyvazov hər iki ölkənin daxili işlər nazirlikləri arasında sıx münasibətlərin mövcudluğundan, imzalanmış beynəlxalq hüquqi sənədlər əsasında transmilli mütəşəkkil cinayətkarlıqla, xüsusilə narkotiklərin qanunsuz dövriyyəsinə, qeyri-leqal miqrasiyaya və insan alverinə qarşı mübarizədə birgə səylərin göstərilməsindən, təcrübə və məlumat mübadiləsindən razılığını bildirib, qarşılıqlı səfərlərin əməkdaşlığın daha da dərinləşdirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Ölkəmizə ilk dəfə səfərə gəldiyini qeyd edən general Zubair Hayat səmimi qəbula, dolğun məlumata görə təşəkkür edib, dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin son illər bütün sahələrdə sürətlə inkişaf etməsindən, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan, respublikamızın, onun paytaxtının dünyanın ən təhlükəsiz dövlətlərindən və şəhərlərindən biri olmasından, Azərbaycanda həyata keçirilən geniş quruculuq işlərindən məmnunluğunu bildirib.

Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

BAŞ İDARƏDƏ QƏBUL

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov noyabrın 17-də xidməti ezamiyyətini başa vurmuş Daxili Qoşunlar Komandanının müşaviri vəzifələrini müvəqqəti icra edən polkovnik Bülent Mərcanı və onu əvəz edəcək polkovnik Mustafa Gəzəri qəbul edib.

İki qurum arasındakı qarşılıqlı əlaqələrin günü-gündən inkişaf etdiyini deyən general-leytenant Ş.Məmmədov Türkiyə Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan hər bir hərbi qulluqçusunun təlim-tədris prosesinin inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırıb.

Polkovnik B.Mərcan isə öz növbəsində Daxili Qoşunlarda xidməti ezamiyyətdə olmaqdan məmnunluğunu ifadə edib. O, həmçinin bu müddət ərzində göstərilən diqqət və qayğıya görə Daxili Qoşunların Komandanlığına dərin minnətdarlığını bildirib.

Görüşdə qeyd olunub ki, iki qardaş ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da davam edəcək.

Cənab Komandan müşavir vəzifəsində xidmətə başlayan polkovnik M.Gəzərə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşün sonunda Daxili Qoşunların Komandanı polkovnik B.Mərcanı fərmanla mükafatlandırıb.

Xatırladaq ki, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında 1997-ci oktyabrın 31-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına dair Protokol"a əsasən, türkiyəli zabitlər Daxili Qoşunlarda təlim-tədris prosesinin təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq müəyyən müddətə müşavir və müəllim kimi Daxili Qoşunlara ezam olunurlar.

Mətbuat xidməti

2_Layout 1 29.11.2017 14:10 Page 1

KEÇİRİLƏN MƏŞĞƏLƏLƏR SAATDARIN XİDMƏTİ-DÖYÜŞ TAPŞIRIĞINI UĞURLA İCRA ETMƏSİNDƏ MÜHÜM ROL OYNAYIR

Döyüş bayrağının, anbarların, o cümlədən hərbi şəhərciyin mühafizə və müdafiəsi ən önəmli vəzifələrdəndir. 17072 saylı hərbi hissənin komendant bölüyü üzərinə düşən bu mühüm vəzifələri uğurla həyata keçirir.

Komendant bölüyünün komandiri baş leytenant Elçin Həmidov mühafizənin etibarlı təşkilindən danışarkən burada bir neçə amilin başlıca şərt olduğunu bildirdi. Qarovul xidmətinə cəlb olunan hərbi qulluqçular ilk növbədə nizam-intizamlı, məsuliyyətli, xidmətin təşkili zamanı nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl etməli, eyni zamanda fiziki baxımdan sağlam, sərrast atıcı olmalıdır. Sadalanan keyfiyyətlərin əldə olunması, həmçinin təkmilləşdirilməsi məqsədilə şəxsi heyətlə mütəmadi olaraq məşğələlər keçirilir. Məşğələlərin effektiv təşkil olunub keçirilməsinə xüsusi diqqət yetirilir. Bu zamanı əldə olunan hərbi bilik və bacarıqlar, peşə vərdişləri saatdarın tapşırılmış ərazidə xidməti-döyüş tapşırıqlarını daha uğurla icra etməsində mühüm rol oynayır. O, postda əzmkar döyüşçüyə çevrilərək, keçilməz sədd yaradır ki, bu da hərbi hissənin etibarlı mühafizəsi deməkdir.

Xidmətə cəlb olunan şəxsi heyətin üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiyini deyən bölük komandiri qarovul rəisiləri kimi baş leytenant Elvin Kərimovun və kiçik gizir Vüsal Abbasovun fəaliyyətini müsbət qiymətləndirdi. Kiçik gizir V.Abbasov xidmətdə olarkən saatdarların postlarda ayıq-sayıqlığını, silahların doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi əməl etmələrini diqqət mərkəzində saxlayır. O, bununla yanaşı, hərbi qulluqçuların asudə vaxtlarının səmərəli keçməsini, stolüstü oyunların təşkilini, müxtəlif ədəbiyyatların mütaliə olunmasını, o cümlədən onların vaxtlı-vaxtında qidalanmasını da nəzarətdə saxlayır.

Qarovul rəisinin köməkçisi kiçik çavuş Fərid Əhmədzadə, əsgərlər Fərahim Ayazov, Nihad Abdullayev, Bəxtiyar Mustafayev, Ehtiram Məmmədzadə, Nemət Nemətli və Nahid Musayev xidmətdə əzmkarlıq nümayiş etdirən hərbi qulluqçular kimi xarakterizə edildilər.

baş leytenant T.Əlizadə

KİTAB OXUMAQ ÖZLÜYÜNDƏ BİR MƏDƏNİYYƏTDİR

Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.

Heydər Əliyev, Milli Lider

Yeni texnologiyalar dövründə yaşamağımıza baxmayaraq, kitabxanalar tarixən, eləcə də bu gün kütləvi mütaliənin əsas təşkilatçısı olaraq qalmaqdadır.

Müasir dünya kitabxanaşünaslığında kitabxanalar cəmiyyətdə elmə, informasiyaya, mədəniyyətə, təhsilə və tərbiyəyə xidmət edən institut kimi qiymətləndirilir.

Hazırda Azərbaycanda 9 minə yaxın kitabxana mövcuddur ki, bu da müasir gəncliyin nitq mədəniyyətinin, düşüncə tərzinin, bir sözlə, ümumilikdə dünya görüşünün formalaşmasında müstəsna əməmiyyət kəsb edir.

Ölkəmizdə yetişməkdə olan gənc nəslin kitaba, kitabxanaya marağının nə dərəcə artması kitabxanaçılarımızın hazırlığından, öz peşəsini dərindən bilməsindən də çox aslıdır. Elə bu səbəbdən oxucuda kitaba maraq yaradılmasında kitabxanaçıların da üzərinə qismən məsuliyyət düşür. Məhz kitabxanaçı-oxucu münasibətlərinin düzgün tənzimlənməsi bu sahədə bir çox irəliləyişlərə səbəb ola bilər.

Hərbi qurumlarda da xidmət edən hərbi qulluqçuların dünyagörüşünün zənginləşdirilməsi mühüm amillərdəndir. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrində də şəxsi heyətin mütaliyə mədəniyyətinin formalaşdırılması üçün hərtərəfli şərait yaradılıb. Hərbi hissələrimizin kitabxanalarında müxtəlif sahələri əhatə edən zəngin ədəbiyyatlar mövcuddur.

"Əsgər" qəzetinin növbəti sayı üçün material toplamaq məqsədilə 16075 saylı hərbi hissədə olduğum zaman burada fəaliyyət göstərən kitabxana haqqında material hazırlamaq qərarına gəldim. Elə bu məqsədlə tərbiyə işləri üzrə bölmədə kitabxana rəisi-kitabxanaçı çavuş Elnarə Həsənovanın xidmətin, ümumilikdə kitabxana işinin təşkili barədə fikirlərini öyrəndim. Artıq doqquz ildir ki bu vəzifəni icra edən kitabxanaçı öz funksional vəzifə borclarının icrasına layiqincə yanaşır. Şəxsi heyəti bədii, hərbi və metodiki ədəbiyyatla, gündəlik mətbuatla təmin edən qadın hərbi qulluqçumuz vəzifəsinə məsuliyyətlə yanaşır. Şəxsi heyətin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi məqsədilə təşkil edilən mədəni-maarif işlərində əlindən gələni əsirgəmir. Çavuş E.Həsənova nəzərə çatdırdı ki, onun xidməti təkcə kitabxana işini təşkil etməklə məhdudlaşmır. Kitab fondunun daha çox müasir nəşrlərlə və yaxud xidmət üçün zəruri ədəbiyyatlarla zənginləşdirilməsi də kitabxana işinin əsas istiqamətlərindəndir. Məhz bu səbəbdən o, şəxsi heyətin bədii ədəbiyyata olan marağını nəzərə alaraq, Sumqayıt Mərkəzi kitabxanasının fondundan da bəhrələndiklərini dedi.

Qarovul məntəqəsində olan dövri mətbuatın mövcudluğunu yoxlamaq, qəzetlərin yeni nömrələrlə əvəzlənməsini təmin etmək də kitabxanaçının vəzifələrinə aiddir. Eyni zamanda çavuş E.Həsənova tərəfindən müvafiq qrafikə əsasən, bütün bölmələr, ictimai-siyasi məşğələ otaqları dövri mətbuatla, o cümlədən "Əsgər" qəzetinin son sayı ilə təmin edilir. Hissənin ərazisində olan mətbuat guşəsində dövri mətbuat daimi olaraq yenilənir. Qeyd edim ki, hərbi hissənin ərazisində yerləşən modul tipli yataqxanada yaşayan hərbi qulluqçuların istirahəti üçün nəzərdə tutulmuş otaqda da kitabxana guşəsi yaradılıb. Bundan əlavə, zabit heyəti ictimai-siyasi hazırlıq məşğələlərinin keçirilməsi zamanı əyani vəsait olaraq kitabxana fondunda olan hərbi-metodiki kitablardan istifadə edirlər.

Vaxtaşırı kitabxana fondunu yoxlamağı, kitabların hesabatını aparmağı, hesabatdan silinməli olan kitablar barədə klub rəisinə müntəzəm olaraq məlumat verdiyini deyən kitabxana rəisi öz işini sevərək icra etdiyini söylədi: "Kitab oxumaq özlüyündə bir mədəniyyətdir. Mən bütün hərbi qulluqçulara bu mədəniyyətə yiyələnməyi tövsiyə edirəm. Modul tipli klubda fəaliyyət göstərən kitabxanamızda şəxsi heyətin istər hərbi biliklərinin, istərsə də bədii dünyagörüşünün artırılması üçün oxu zalı mövcuddur ki, bu da öz növbəsində hərbi qulluqçulara olan diqqət və qayğının təzahürüdür".

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Məzahir Seyidov tərəfindən müsbət xarakterizə olunan çavuş E.Həsənova nümunəvi xidmətinə görə Daxili İşlər Nazirinin "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə təltif olunub.

leytenant N.Ağayeva

ŞƏXSİ HEYƏTİN DÖYÜŞ HAZIRLIĞI YOXLANILIB

"2017-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"nın tələblərinə uyğun olaraq, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının əmrinə əsasən, Müdafiə Nazirliyinin "Goran" Təlim Mərkəzində noyabrın 7-dən 11-dək 16077 və 16073 saylı hərbi hissələrin artilleriya bölmələri ilə döyüş atışlı taktiki təlim keçirilib.

Təlimin ilk günündə təlim planı və məqsədi iştirakçılara çatdırılıb, hərbi qulluqçularla təhlükəsizlik qaydalarına riayət olunması üzrə məşğələ, eləcə də silahlara, döyüş sursatlarına və texniki vasitələrə baxış keçirilib. Bundan əlavə, hərbi hissələrin artilleriya və minaatan bölmələrinin hərbi qulluqçuları ilə ixtisas hazırlığı üzrə məşğələlər keçirilib və məqbullar qəbul olunub.

Təlimin növbəti günlərində isə atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin fəaliyyəti, "Atəş" əmrinin icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, həmçinin komandir heyəti ilə ərazinin kəşfi, qiymətləndirilməsi, artilleriya atışı və atəşinin idarə olunması qaydaları, artilleriya xətkeşlərinin və ərazinin xəritəsindən istifadə edərək hədəfləri müəyyən etmək üsulu ilə atışların keçirilməsi qaydası, atəşin bir nöqtədən idarə olunması üzrə şəxsi heyətin praktiki fəaliyyəti də məşq etdirilib.

Hərbi hissələrin müvafiq bölmələrinə yeni təyin olunmuş hərbi qulluqçularla əlavə məşğələlər keçirilib. Təlimin sonunda normativlər qəbul edilib, şəxsi heyətin bilik və bacarıqları qiymətləndirilib.

Təlimlər zamanı təşkilati məsələlərin həlli, şəxsi heyətin qidalanması, yerləşdirilməsi, daxili xidmətin təşkili, praktiki atışlar zamanı isə atəş sahəsinin mühafizəsi, tibbi təminatı da yüksək səviyyədə həyata keçirilib.

baş leytenant X.Hacızadə

VETERANLARIN ALİ HƏRBİ MƏKTƏBİN KURSANTLARI İLƏ GÖRÜŞÜ OLUB

Görüşdə zabit üçün zəruri olan şəxsi keyfiyyətlər, hərbi şərəf və ləyaqət anlayışı, nizamnamələrin hərbi qulluqçuların gündəlik xidmətində rolu mövzusunda fikirlər səsləndirilib.

Noyabrın 16-da Daxili Qoşunların Ali Hərbi Məktəbinə bu il qəbul olunan kursantlarla Daxili Qoşunların veteranlarının görüşü olub. Görüşdə Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov, şura üzvləri Elxan Xəzər və Vaqif Nəsibov iştirak ediblər.

Ali Hərbi Məktəb rəisinin tərbiyə işləri üzrə müavini polkovnik Ağacan Zərbəliyev tədbiri açaraq, veteranları salamlayıb. O, Ali Hərbi Məktəbdə artıq ənənəvi olaraq hər il veteranların kursantlarla görüşünün təşkil edildiyini nəzərə çatdırıb. Belə görüşlərin kursantların hərbi-vətənpərvərlik tərbiyəsinə gərəkli töhfə verdiyini vurğulayan polkovnik A.Zərbəliyev, veteranlarımızın Daxili Qoşunların formalaşması və inkişafında xidmətlərini yüksək qiymətləndirib.

Sonra Veteranlar Şurasının sədri M.Mürsəlova söz verilib. O, öz çıxışında kursantları veteranlar adından salamlayıb. Nəzərə çatdırılıb ki, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmiz inamla gələcəyə doğru addımlayır, öz dövlət müstəqilliyini daha da möhkəmləndirir. Bugün ölkəmizdə ictimai-siyasi sabitlik etibarlı şəkildə qorunur. Polis orqanları və Daxili Qoşunların şəxsi heyəti ölkədaxili ictimai sabitliyin layiqli keşikçiləridir.

Qeyd edilib ki, Ali Hərbi Məktəbdə hərbi təhsil alan kursantlar gələcəyin zabitləridir və Daxili Qoşunların şərəfli ənənələrini onlar davam etdirəcəklər. Qoşunların formalaşma tarixi, döyüş yolu və xidməti fəaliyyətdə əldə etdiyi nailiyyətlər barədə kursantların dolğun məlumatlandırılmasının əhəmiyyətini vurğulayan M.Mürsəlov bu işdə veteranların xüsusi rolunu diqqətə çatdırıb.

Veteranlar Şurasının sədri rəhbərlik etdiyi təşkilatın fəaliyyətinin əsas istiqamətləri barədə danışıb, veteranların xidmət təcrübəsidən irəli gələn məqamlarla bağlı maraqlı faktlar açıqlayıb.

O, zabit üçün gərək olan şəxsi keyfiyyətlər, hərbi şərəf və ləyaqət anlayışı, nizamnamələrin hərbi qulluqçuların gündəlik xidmətində rolu mövzusunda fikirlərini bildirib. O, kursantlara hərbi təhsillərində diqqət yetirməli olduqları əsas cəhətlərlə bağlı tövsiyələrini çatdırıb və onlara uğurlar arzulayıb.

Veteranlar Şurasının üzvü V.Nəsibov öz çıxışında Daxili Qoşunların bu günədək keçdiyi şərəfli yolun ayrı-ayrı səhifələri barədə xatirələrini danışıb, hərbi qulluqçularımızın Vətənimiz və dövlətçiliyimiz naminə çətin sınaqlardan ləyaqətlə keçdiklərini qeyd edib. O, xidməti-döyüş fəaliyyətində müsbət nümunələrin təbliğ edilməsinin tərbiyəvi əhəmiyyətinə toxunub.

V.Nəsibov kursantların mənəvi-psixoloji hazırlığından irəli gələn məsələlərlə bağlı öz fikirlərini bildirib.

E.Xəzər isə öz çıxışında Daxili Qoşunların bu günədək təqdirəlayiq inkişafının, yüksək potensiala malik hərbi quruma çevrilməsinin qürur hissi doğurduğunu deyib. O, qoşunların veteranlarının zəngin döyüş və xidmət təcrübəsinə malik olduqlarını və bu gün şəxsi heyətin təlim-tərbiyəsi işinə töhfə verdiklərini bildirib.

Qeyd olunub ki, hərbi qulluqçuların mənəvi keyfiyyətləri Milli Lider Heydər Əliyevin irəli sürdüyü və nəzəri əsaslarını müəyyən etdiyi azərbaycançılıq ideologiyasına, milli-mənəvi dəyərlərimizə bağlılıq, dövlət atributlarımıza, hərbi ənənələrimizə ehtiram əsasında formalaşmalıdır. Vətənə, millətə sədaqətin, bu yolda fədakarlığın təməlində məhz qeyd olunan faktorlar dayanır.

E.Xəzər bədii yaradıcılığı haqqında da danışaraq, kitablarında xalqımızın qan yaddaşı, milli təəssübkeşlik, hərbi xidmətin müqəddəsliyi mövzularının üstünlük təşkil etdiyini, bir çox şeir və poemalarının hərbi qulluqçularımızın qəhrəmanlığına həsr olunduğunu vurğulayıb. O, vətənpərvərlik mövzusunda yazdığı bir neçə şeirini də öz çıxışında səsləndirib.

Polkovnik A.Zərbəliyev görüşə yekun vuraraq, veteranlara Ali Hərbi Məktəbin komandanlığı və şəxsi heyəti adından minnətdarlığını bildirib, onlara ictimai fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdən sonra xatirə şəkli çəkdirilib.

Veteranlar Ali Hərbi Məktəbdən müsbət təəssüratla ayrılıblar.

Yalçın Abbasov

3_Layout 1 29.11.2017 12:17 Page 1

ŞƏHİDLƏRİMİZ

VƏTƏNƏ FƏDA OLUNAN ÖMÜR...

Daxili Qoşunların şəhidləri haqqında apardığım tədqiqatlar davam etdikcə, xalqımızın neçə-neçə ləyaqətli oğlunun ömür yolunu öyrənir, Vətən torpaqlarının müdafiəsində onların necə şücaətlə vuruşduqlarını təsdiqləyən çoxsaylı faktlar barədə məlumatlar toplayıram. Hər bir şəhidin taleyində, mənəvi dünyasında, ölməzlik zirvəsinə ucaldığı döyüş yolunda olduqca maraqlı, ibrətamiz, bugünkü və gələcək nəsillərə örnək ola biləcək məqamlar az deyil. Şəhidlərini unutmayan, onların xatirəsini yaşadan xalq döyüş ruhunu da qoruyub saxlayır. Vətən yolunda hər bir hünər və fədakarlıq nümunəsi qan yaddaşımızda silinməz izlər qoyur.



ŞƏHİD MƏMMƏDBƏYLİ HƏZİ RASİM OĞLU

Bu yazı şəhid hərbi qulluqçumuz baş çavuş Məmmədbəyli Həzi Rasim oğlunun şərəfli həyat yoluna həsr olunub. Onun kimi oğul haqqında tam səmimi və inamla demək olar ki, Vətən və xalq üçün doğulmuşdu, bu missiya, bir növ, alın yazısı, əsas həyat amalı idi.

H.Məmmədbəyli 11 fevral 1966-cı ildə Bakı şəhərində dünyaya göz açıb. O, soykökü etibarilə adlı-sanlı Gülməmmədbəyovlar nəslinin törəmələrindən biri idi. Gülməmmədbəyovlar XVIII əsrin ortalarından başlayaraq Qarabağın mirvarisi sayılan Şuşa şəhərində məskunlaşmışlar. Beləliklə, bu nəslin nümayəndələri uzun tarixi müddətdə Şuşada yaşamış, burada xeyirxah əməlləri, el-oba qayğısına qalmaları ilə böyük hörmət və nüfuz qazanmışlar.

H.Məmmədbəyli dörd övladın dünyaya gəldiyi ailədə üçüncü uşaq olub. Onun iki bacısı və bir qardaşı var. Gülməmmədovlar ailəsi öncə Bakıda Səbail rayonunun Müktədir küçəsindəki binada yaşayıb, sonra paytaxtın Xətai rayonundakı Əhmədli qəsəbəsinə köçüblər. Həzi öncə 132, sonra isə 260 saylı ümumtəhsil məktəblərində orta təhsil alıb. Orta məktəbdə oxuduğu illərdən Vətənimizin tarixinə, mədəni irsinə böyük maraq göstərib, tədris edilən fənlər üzrə biliklərə əzmlə yiyələnib, savadlı olmağa çalışıb. O, müəllimlərinə ehtiramla yanaşıb, bu fədakar peşə sahiblərinin əməyini həmişə uca tutub.

1983-cü ildə H.Məmmədbəyli Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (hazırda Azərbaycan Dövlət İqtisad Universiteti) Uçot-iqtisad fakültəsinə qəbul olunub. Tələbə adını daşımaq hüququnu qazanmaq üçün öz biliyinə güvənib, müəllimlərinin etimadını doğruldub. O vaxt öz ixtisası üzrə bacarıqlı kadr kimi formalaşmağı və gələcəkdə işləyəcəyi sahədə respublikamıza fayda verməyi qarşısına məqsəd qoymuşdu.

1985-ci ildə Xətai Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xətai Rayon İdarəsi) tərəfindən sovet ordusu sıralarına həqiqi hərbi xidmətə çağırılıb. Rusiya Federasiyasının Moskva vilayətinin Krasnaqorsk rayonunda yerləşən 93406 saylı hərbi hissədə xidmət edib. Bu hərbi hissə inşaat təyinatlı vəzifələr yerinə yetirib, yəni həmin dövrdə camaat arasında onlar "stroybat" adlandırılırdı.

Məqalənin hazırlanması prosesində Həzinin əsgərlik yoldaşı olmuş Saleh Eyvazovla görüşdüm. O, Həzinin sovet ordusu sıralarında əsgərlik illəri barədə xatirələrini danışdı. Onun sözlərinə görə, Həzi hərbi xidmətin heç bir çətinliyi qarşısında ruhdan düşmürdü. Komandirlər onun savadına, dünyagörüşünə, təşkilatçılığına heyran qalırdılar. Hər addımda öz soydaşlarının hüquqlarını müdafiə etməkdən çəkinməyib. Hər hansı bir ayrı-seçkiliyə qarşı etirazını bildirib. Elə bu cəhətlərinə görə də müəyyən problemlərlə üzləşib. Ancaq heç vaxt öz iradəsinin əksinə getməyib.

S.Eyvazov qeyd etdi ki, Həzi vətənpərvər, millətsevər, dostluğa sadiq, güclü ədalət hissi olan insan kimi yaddaşında qalıb.

1987-ci ildə H.Məmmədbəyli hərbi xidmətdən Vətənə qayıdıb. Elə həmin ildən institutda ali təhsilini axşam şöbəsində davam etdirib. Bununla yanaşı, əmək fəaliyyətinə də başlayıb. O, "Azneft"-in Xəzərdənizneftqaz İnşaat trestinin 3 nömrəli Tikinti-quraşdırma İdarəsinə işə düzəlib. Burada öncə fəhlə, montajçı, sonra isə təhlükəsizlik texnikası üzrə mühəndis işləyib.

1988-ci ildə Ermənistanın respublikamıza qarşı ərazi iddiaları irəli sürməsi, azərbaycanlıların oradan didərgin salınaraq Vətənimizə pənah gətirməsi, Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması xalqımızın hiddətinə səbəb oldu. Beləliklə, bu hadisələr respublikamızda milli dirçəliş hərəkatına təkan verdi. Vətənin, xalqın təəssübünü çəkən H.Məmmədbəyli təbii ki, bütün bu baş verənlərə biganə qala bilməzdi. O, milli azadlıq hərəkatının fəallarından biri oldu. Çoxları kimi, Həzi də xalqımızın nicatını müstəqilliyə, azadlığa qovuşmağımızda görürdü. Bu yolda heç nəyini əsirgəməməyi özü üçün qətiləşdirmişdi.

1990-cı ilin 20 Yanvar, 1991-ci ilin 20 noyabr faciələri onu dərindən sarsıtmışdı. 1991-ci ilin aprel ayında Həzi milli özünüdərk hissinin təzahürü olaraq, Gülməmmədov soyadındakı "ov" şəkilçisindən imtina edib. Gülməmmədbəyli soyadının sənədləşmə üçün bir qədər uzun olduğu qənaətinə gələrək, Məmmədbəyli variantı üzərində dayanır. Bu addım həm də onun ictimai təfəkküründə yeni bir səhifə açmış oldu.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycanın öz dövlət müstəqilliyini elan etməsini, bütün soydaşlarımız kimi, Həzi də böyük ruh yüksəkliyi ilə qarşıladı. Onun ictimai fəaliyyəti milli müstəqilliyimizin qorunmasına yönəldi.

1992-ci ildən başlayaraq Ermənistanın torpaqlarımıza hərbi təcavüzü gücləndi. Həmin ilin fevral ayının 26-da ermənilərin Xocalıda azərbaycanlılara qarşı törətdiyi soyqırım, may ayında isə Şuşa və Laçının işğal olunması xalqımızın necə böyük bir fəlakətlə üz-üzə qaldığını göstərdi. Ata yurdu Şuşanın düşmənin əlinə keçməsi onun daxilində qisas hissini daha da alovlandırırdı. Atası Rasim Gülməmmədov bu faciədən bir neçə il əvvəl - 1989-cu ildə ağır xəstəlikdən vəfat etmişdi. Atasının vəfatından sonra Şuşa itkisi onun üçün çox böyük mənəvi zərbə idi.

1992-ci ilin may ayında H.Məmmədbəyli könüllü olaraq milli ordu sıralarına qoşuldu. Həmin vaxt Müdafiə Nazirliyinin tabeliyində, Bakıdakı "Salyan kazarmaları" adlandırılan hərbi şəhərcikdə yeni hərbi hissə formalaşdırılırdı. Burada xüsusi təyinatlıların hazırlanmasına başlanmışdı. Həzi hərbi formanı fəxrlə geyinirdi, onu qeyd etdiyim hərbi hissənin şəxsi heyətinin sıralarına qəbul etmişdilər.

1992-ci ilin may ayının ikinci yarısında H.Məmmədbəylinin hərbi qulluqçusu olduğu hərbi hissə Müdafiə Nazirliyinin tabeliyindən Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tərkibinə verilir. İyun ayının əvvəllərində isə hərbi hissə Əli-Bayramlıya (hazırda Şirvan şəhəri) dislokasiya olunur. Burada Həzi vətənpərvər və mübariz bir hərbi qulluqçu kimi hərbi hissənin bayraqdarı təyin edilir. O, digər hərbi qulluqçularla birgə hərbi andı qəbul etdikdən sonra mövcud şəxsi heyət Ağdam döyüş bölgəsinə göndərilir.

1992-ci ilin iyun ayının 12-də Ağdam rayonu ərazisində Daxili Qoşunların 3650 saylı hərbi hissəsinin (hazırda 67987 saylı hərbi hissə - Y.A.) formalaşmasının əsası qoyuldu. Həmin tarixdən etibarən Daxili Qoşunların şəxsi heyəti ön cəbhədə birləşmiş hərbi dəstə şəklində deyil, dislokasiya yeri kimi yerləşmiş hərbi hissənin tərkibində döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olundu.

1992-ci il iyunun 18-dək olan müddətdə baş çavuş H.Məmmədbəyli Ağdam rayonunun düşmənlə təmas xəttindəki mövqelərində torpaqlarımızın müdafiəsində dayanıb. O, qarşıya qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı cəsur döyüşçü kimi qətiyyət göstərib. Xüsusən Ağdam-Əsgəran təmas xəttindəki Aranzəminli, Pircamal və Naxçıvanik kəndləri uğrunda döyüşlərdə düşmənə sarsıdıcı zərbələr vurub, öz

cəsarəti ilə döyüşçü yoldaşlarını da ruhlandırıb. Bu döyüşlərdə ermənilər canlı qüvvə sarıdan xeyli itkiyə məruz qalıblar. Onların bir sıra döyüş postları da darmadağın edilib.

Baş çavuş H.Məmmədbəylinin son döyüşü 1992-ci il iyun ayının 18-də oldu. Bu son döyüşün təfsilatları ayrı-ayrı müəlliflərin kitablarında fərqli məzmunda verilib. Həmçinin şəhidin ailəsinin bununla bağlı mənə təqdim etdiyi konkret sənədlər var. Mən bu mənbələrin hər birinə şərh vermədən istinad etməyi qərara aldım.

Firuzə Bəymənmədqızının 1996-cı ildə işıq üzü görmüş "Vağzalı çalınır" kitabında Həzi barədə "Yuxuda gördüm ki..." adlı yazı verilib. Yazıda bəzi döyüşçü yoldaş-larının sözlərinə istinadən Həzinin döyüş yolundan bəhs olunur. Müəllif yazır ki, 18.06.1992-ci il tarixdə Aranzəminli kəndi ətrafındakı mövqelərimiz düşmən artilleriyası tərəfindən atəşə tutulub. Yaxınlığa düşən mərminin partlayışı nəticəsində döyüşçülərdən Həzi və Şahin ağır yaralanaraq şəhid olublar.

Elbrus Şahmarın müəllifi olduğu, 1996-cı ildə çapdan çıxmış "Şah İsmayıl qartalları" kitabında isə H.Məmmədbəyliyə "Torpağına qurban kəsim" yazısı həsr olunub. Kitabda onun 18.06.1992-ci il tarixdə torpaqlarımız uğrunda döyüşdə düşmən snayperinin gülləsinə tuş gəldiyi və şəhid olduğu qeyd edilib. Ancaq bu son döyüşün baş verdiyi ərazi barədə dəqiq məlumat kitabda öz əksini tapmayıb.

Daxili Qoşunlar Komandanının şəhidin ailəsinə göndərdiyi 16.07.1992-ci il tarixli məktubda H.Məmmədbəylinin 18.06.1992-ci il tarixdə Naxçıvanik kəndi uğrunda döyüşdə qəhrəmanlıq göstərdiyi və düşmən snayperinin gülləsindən yaralanaraq həlak olduğu məlumat verilib.

1992-ci ildə tərtib edilmiş ölüm şəhadətnaməsində Həzinin 18.06.1992-ci ildə Naxçıvanikdə həlak olduğu yazılıb. Həmçinin Xətai Rayon Hərbi Komissarlığının 1992-ci ildə verdiyi arayışda da onun 18.06.1992-ci ildə şəhid olduğu məlumatı öz əksini tapıb.

Baş çavuş H.Məmmədbəyli Bakıda Şəhidlər Xiyabanında dəfn olunub. Məzarının üzərində şəhid olduğu tarix 20.06.1992-ci il göstərilib. Ola bilsin ki, bu, onun dəfn olunduğu gün ilə əlaqədardır.

Azərbaycan Respublikası Prezidentinin 11 mart 2010-cu il tarixli, 788 nömrəli Sərəncamına əsasən, Məmmədbəyli Həzi Rasim oğlu ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib. Medal Dövlət Müstəqilliyi Günü münasibətilə 18.10.2011-ci ildə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində keçirilmiş təntənəli mərasimdə şəhidin qardaşı Rafael Gülməmmədliyə təqdim olunub.

Şəhid haqqında məqalənin hazırlanması zamanı R.Gülməmmədli ilə görüşüb ətraflı söhbət etdim. Rafael müəllim Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirib, ixtisasca rəssamdır. Bakı İncəsənət Mərkəzi Yaradıcılıq Birliyinin rəhbəridir. O, milli-mənəvi dəyərlərimizə bağlılığı olan şəxsdir. Qədim kökləri olan nəslinin, bütövlükdə Qarabağın tarixinə dərindən bələddir. Maraqlı söhbətimiz zamanı ailəsindən, şəhid qardaşının ömür yolundan ətraflı məlumat verdi. Atası Rasim Gülməmmədov zəngin bir həyat yolu keçib. Elmi fəaliyyətlə məşğul olub, kənd təsərrüfatı üzrə elmlər namizədi idi. Bir çox məsul vəzifələrdə çalışıb. "Əmək veteranı" medalı ilə təltif edilib. Rafael müəllim bildirdi ki, anası Zemfira xanım övladlarını vətənpərvər ruhda tərbiyə edib. O, milli azadlıq hərəkatının fəal tərəfdarlarından olub. Qarabağın qara günlərini görmək ona çox ağır təsir göstərib. Həzinin müharibədə şəhid olması acısı isə onu həyatdan küsdürüb. Bir dəfə yuxuda Həzi anasına deyib ki, "sən fikir etmə, məni Allah yanına çağırıb". Zemfira xanım Həzinin döyüşçü yoldaşlarının cəbhədən gətirdiyi milli bayrağımızı ötən illər ərzində 28 May günü evin eyvanından asıb. Bu bayraq bayraqdar Həzi üçün qürur mənbəyi idi, onu göz bəbəyi kimi qoruyurdu. Rafael müəllim dedi ki, bu bayrağı və ümumiyyətlə, Həzinin hərbi xidmətə aid bəzi şəxsi əşyalarını xatirə olaraq Daxili Qoşunların Muzeyinə təqdim etmək fikri var.

Həzi sonuncu dəfə ön cəbhəyə yollanmazdan əvvəl qardaşına bir ağ-qara fotosunu verərək, həlak olarsa, xatirəsini əbədiləşdirmək üçün bu şəkildən istifadə etmələrini vəsiyyət olaraq söyləyib. O, həmçinin, onun kimi cəbhəyə könüllü getmək istəyən böyük qardaşını bu fikirdən daşındırıb, ailə üzvlərindən muğayat olmasını istəyib.

Həzi şəhidlik məqamına ucalacağını, ölümün ona yaxınlaşdığını öncədən duymuşdu. Özünü Vətənə fəda edən igid oğul kimi onun əziz xatirəsi heç vaxt unudulmayacaq.

Allah rəhmət eləsin!

Yalçın Abbasov

ŞƏXSİ HEYƏTİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞDIRILMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Bu gün Daxili Qoşunların qarşısında qoyulmuş hər bir tapşırıq müvəffəqiyyətlə icra olunur. Bu, qoşunlardakı döyüş qabiliyyətinin, eyni zamanda mənəvi-psixoloji durumun yüksək səviyyədə olmasından xəbər verir.

Şəxsi heyətin xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, qanunçuluğun, hərbi intizamın yüksək səviyyədə saxlanılmasında, eləcə də hərbi kollektivin möhkəmləndirilməsində mənəvi-psixoloji hazırlıq ən əhəmiyyətli məsələlərdəndir.

Xidməti ezamiyyətdə olarkən 17074 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin şəxsi heyəti ilə keçirilən tərbiyə işi saatında iştirak etdim. Dəstə komandiri kapitan Novruz Tahirov bir qədər tərbiyə işi saatının əhəmiyyətindən danışdı. Qeyd etdi ki, tərbiyə işi saatı hərbi qulluqçuların maarifləndirilməsində, intellektinin, dünyagörüşünün artırılmasında, eyni zamanda daha bacarıqlı, fəal hərbi qulluqçuların seçilməsində əhəmiyyətli rola malikdir. O, tərbiyə işi saatının həftədə bir dəfə olmaqla çərşənbə axşamı xüsusi vasitələrin tətbiqi dəstəsinin tərbiyə işləri üzrə müavini kapitan Məmməd Məmmədovun rəhbərliyi ilə keçirildiyini söylədi.

Dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan M.Məmmədovun sözlərinə görə, məşğələlər bəzən test formasında təşkil olunur. Testlər hərbi qulluqçulara paylanılır və vaxt verilir. Vaxt bitdikdən sonra testlər yığılır, yoxlanılır, səhv cavablandırılmış sualların düzgün cavabları şəxsi heyətə təqdim olunur və izah edilir. Beləcə, şəxsi heyət səhv etdiyi sualın cavabını da öyrənmiş olur. Bundan başqa, ayda bir dəfə viktorina təşkil olunur. Şəxsi heyət bir neçə komandalara bölünür. Komandalara müxtəlif səpkili mövzularda suallar ünvanlanır. Suallar komandalara eyni vaxtda verilir. Hər bir sualı cavablandırmaq üçün onların 30 saniyə vaxtı olur. Düzgün cavab verən bir neçə komanda olduqda hər biri 10 balla, bir komanda olanda isə 15 balla qiymətləndirilir. Viktorinanın qalib heyəti dəstə komandanlığı tərəfindən mükafatlandırılır.

Viktorinalar zamanı fəallıqları ilə seçilən hərbi qulluqçulardan gizirlər Nicat Nağıyevin, Yadulla Əkbərovun, Şərif Mirzəmməmədovun, çavuş Eldar Hüseynovun, əsgər Zahir Mənəfovun adlarını qeyd edə bilərik.

baş leytenant T.Əlizadə

HƏRBİ YENİLİKLƏR

"Kalaşnikov"un səssiz uçan PUA-ları

"Kalaşnikov" konserninin istehsal etdiyi ZALA 421-16E2 kəşfiyyat təyinatlı səssiz pilotsuz uçuş aparatlarının ilk nümunələri sifarişçilərə təqdim olunub. Yeni kəşfiyyat və nəzarət təyinatlı PUA kompleksi ZALA 421-16E2-nin seriya istehsalına bu il başlanıb.

İlk aparatlar artıq sifarişçilərə təhvil verilib. Onların sırasında həm dövlət orqanları, həm də müxtəlif kommersiya strukturları var. PUA-nın çəkisi 7,5 kiloqramdır. O, fasiləsiz olaraq 4 saat uça bilir və onun havaya buraxılması əl vasitəsilə həyata keçirilir.

Ukrayna Ordusu ilk "Kazak"ları silahlanmaya qəbul edib

Ukrayna Silahlı Qüvvələri "Praktika" şirkətinin istehsalı olan "Kazak-2" zirehli maşının ilk partiyasını qəbul edib.

"Iveco Eurocargo" şassisi üzərində istehsal edilən "Kazak-2"nin çəkisi 15 tondur. On hərbçini daşıya bilən avtomobil 280 at gücündə dizel mühərriklə təchiz edilib. Maşının ballistik müdafiəsi STANAG

level 2, mina partlayışından müdafiəsi isə STANAG level 2a/2b səviyyəsindədir.

Serbiya yeni raket hazırlayıb

Serbiya "Koşava-1" adı verilən "yer-yer" tipli yeni raket hazırlayıb. Yeni raketin eksperimental nümunəsi nümayiş etdirilib. Modernizə edilmiş "Oqan" sistemindən də atıla bilən raketin uzunluğu 2670 mm, çəkisi 248 kiloqram, döyüş başlığı 100 kiloqramdır. Kombinə olunmuş (inersial və özütuşlanan) yönləndirmə sisteminə və atışdan sonra açılan qanadlara malik "Koşava-1" raketinin maksimum məsafəsi 50 km, sürəti 250 m/saniyədir.

Beşinci nəsil "Glock"

"Glock" şirkəti "Glok 17" tapançasının yeni modifikasiyasının və "Glock 19"un qısaldılmış versiyasının istehsalına başlayıb. 5-ci nəsil sayılan tapançalar zahirən öz sələflərindən fərqlənmir. Silahın daxili

detalları dəyişikliklərə məruz qalıb. Silah yenilənmiş lüləyə sahibdir. Tapançanın buraxıcı mexanizmində dəyişikliklər edilib. Bundan başqa, tapançalar dəyişdirilmiş "qayıdan yaya" malikdir.

azeridefence.com

4_Layout 1 29.11.2017 14:12 Page 1

HƏRBİ QULLUQÇULARIMIZIN SAYIQLIĞI NƏTİCƏSİNDƏ QANUN POZUNTUSUNUN QARŞISI ALINIB

Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin hərbi qulluqçuları hər zaman nümunəvi xidmətləri, ayıq-sayıqlıqları ilə fərqlənir, mühafizə etdikləri obyektlərdə təhlükəsizliyin təmin edilməsində fəallıq nümayiş etdirirlər.

Hərbi hissənin şəxsi heyəti tərəfindən qarovul xidmətinin təşkili və yerinə yetirilməsi Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə uyğun həyata keçirilir. Qarovul xidmətinə cəlb edilmiş hər bir hərbi qulluqçu dərindən dərk edir ki, qarovul xidmətini yerinə yetirmək döyüş vəzifəsini yerinə yetirmək deməkdir və bu Nizamnamənin bütün müddəalarına dəqiq əməl etmək, yüksək sayıqlıq, sarsılmaz qətiyyət və təşəbbüskarlıq göstərmək tələb olunur.

Şəxsi heyətlə keçirilən nəzəri və praktiki məşğələlərdə postlarda xidmət aparan saatdarlara vəzifələri izah edilir. Xüsusi olaraq diqqətə çatdırılır ki, saatdar öz postunu sayıq mühafizə və mətanətlə müdafiə etməli, ayıq xidmət aparmalı, fikrini yayındırmamalı, silahını əlindən buraxmamalı və onu tabe olduğu şəxslər də daxil olmaqla, heç kimə verməməlidir. Eyni zamanda, təyin olunmuş marşrutla hərəkət edərək, postun yaxınlığındakı girəcəkləri və hasarları nəzərdən keçirməli, həmçinin siqnalizasiya vasitələrinin sazlığını yoxlamalı, həyatı təhlükədə olsa belə, növbə dəyişilməyincə, postdan çıxarılmayınca tutduğu mövqeyi tərk etməməlidir.

Məşğələlərin effektiv keçirilməsinin nəticəsidir ki, xidmətin təşkili və aparılması zamanı şəxsi heyət tərəfindən qarşıya çıxan istənilən təhlükənin qarşısı alınır.

Bu günlərdə Daxili İşlər Nazirliyinin inzibati binasının mühafizəsi üzrə təyin olunmuş qarovulda xidmət aparan hərbi qulluqçularımızın ayıq-sayıq xidməti dediklərimizin bariz nümunəsidir.

Belə ki, noyabr ayının 16-da Daxili İşlər Nazirliyinin inzibati binasının mühafizəsi üzrə təyin olunmuş qarovulda xidmət apararkən saatdar - hərbi hissənin mühafizə manqasında əsgər Misir Abbaszadə gecə saatlarında postun qadağan olunan hissəsinə yaxınlaşan vətəndaşı xəbərdar etməsinə baxmayaraq, sonuncu onun əmrinə tabe olmayıb. Bununla əlaqədar, əsgər M.Abbaszadə dərhal qarovul rəisinə məlumat verib. Qarovul rəisi gizir Bahadur Abbaszadə isə həmin vətəndaşı saxlayaraq, müvafiq tədbirlərin görülməsi üçün polis əməkdaşlarına təhvil verib.

Növbəti buna bənzər hadisə isə noyabrın 23-də baş verib. Belə ki, yenə də Daxili İşlər Nazirliyinin inzibati binasının mühafizəsini təşkil edən əsgərlər Kamran Hüseynli və Rəşad Eyyubov səhər saatlarında postun qadağan olunmuş sahəsinə yaxınlaşan xarici vətəndaşa xəbərdarlıq etmələrinə baxmayaraq, o, buna məhəl qoymadığından hərbi qulluqçular dərhal qarovul rəisi gizir Hikmət İsgəndərova məlumat veriblər. Gizir H.İsgəndərov vətəndaşı saxlayaraq, aidiyyəti üzrə polis bölməsinin əməkdaşlarına təhvil verib.

Beləliklə, hərbi qulluqçularımızın xidməti vəzifələrinin icrasına məsuliyyətlə yanaşmaları nəticəsində qanun pozuntularının qarşısı alınıb. Onlar hərbi hissə komandirinin müvafiq əmrinə əsasən mükafatlandırılıblar.

baş leytenant X.Hacızadə

VƏZİFƏLƏRƏ SON DƏRƏCƏ MƏSULİYYƏTLƏ YANAŞILIR

Daxili Qoşunların Arxivi 1996-cı ildə Daxili İşlər Nazirinin müvafiq əmrinə əsasən yaradılıb və hal-hazırda 67987 saylı hərbi hissənin ərazisində Arxiv ikimərtəbəli inzibati binada yerləşdirilib. 1-ci mərtəbədə hərbi qulluqçuların xidməti otaqları, 2-ci mərtəbədə isə müvafiq sənədlərin mühafizə olunduğu otaqlar yerləşir. Sənədlər təyinatına görə seyflərdə, dəmir şkaflarda və xüsusi qutularda etibarlı şəkildə qorunur.

Arxivdə xidmət edən hərbi qulluqçularımız üzərilərinə düşən vəzifələrə son dərəcə məsuliyyətlə yanaşırlar.

Ümumiyyətlə, Arxivin fəaliyyəti haqqında ətraflı məlumat almaq üçün xidmətin rəisi polkovnik-leytenant Zöhrab Əsgərovla söhbət etdik. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Arxivi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında Arxiv işinin təşkili haqqında" Təlimatın təsdiq edilməsi barədə" müvafiq əmrlərin tələbləri əsasında fəaliyyət göstərdiklərini bildirən xidmət rəisi qeyd etdi ki, Arxivdə ümumi, şəxsi heyət və nizami hissə üzrə, məxfi əmrlər, həmçinin, hazırda fəaliyyət göstərən və vaxtilə fəaliyyət göstərib ləğv edilmiş hərbi hissələrin sənədləri, ehtiyata buraxılmış hərbi qulluqçuların 2-ci nüsxə şəxsi işləri saxlanılır. Daxili Qoşunların Baş İdarəsinə edilmiş müraciətlər əsasında sabiq hərbi qulluqçuların və hazırda xidmət edənlərin xidmət keçməsi barədə müxtəlif məzmunlu arxiv arayışları, əmrlərdən çıxarışlar tərtib olunur. İl ərzində DQBİ-dən, AHM və hərbi hissələrdən Arxivə müvəqqəti və daimi saxlanmaq üçün sənədlər daxil olur. Bu sənədlər müvafiq qaydada qeydiyyata alındıqdan sonra aidiyyəti fondların saxlanc yerlərində yerləşdirilir. Hər ilin noyabr ayı ərzində DQBİ-dən, AHM və hərbi hissələrdən növbəti il üçün tərtib edilmiş sənədlərin nomenklatur siyahısı razılaşdırılmaq üçün Arxivə daxil olur. Siyahılar razılaşdırıldıqdan sonra bir nüsxəsi Arxivdə saxlanılır, digər nüsxəsi isə geri qaytarılır.

Sənədlər mübadiləsini intensivləşdirmək məqsədilə, müasir texnologiyalardan istifadə olunmaqla, DQBİ ilə Arxiv arasında əlaqə yaradılıb. Hərbi qulluqçular tərəfindən il ərzində bütün qoşunların tarixi, elmi qiyməti olmayan və praktiki əhəmiyyətini itirmiş sənədlər məhv edilir. Daxili Qoşunların Komandanlığı tərəfindən gələcəkdə Arxiv işinin daha da mükəmməlləşdirilməsi, həmçinin, sənədlərin saxlanılmasının daha etibarlı təmin edilməsi məqsədilə sənədlərin çoxalması perspektivlərini nəzərə alaraq, bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Xidmətin uğurlu təşkilində tabeliyində olan hərbi qulluqçuların böyük zəhmətinin olduğunu nəzərə çatdıran polkovnik-leytenant Z.Əsgərov həm iş prosesində, həm də qarşılıqlı münasibətlər zamanı onların bir-birinə hörmətlə yanaşdığını, xidmətdə subardinasiya qaydalarının qorunub saxlanıldığını vurğuladı. Mayor Kamran Məmmədov, baş leytenant Samir Əsiri, gizir Farid Məmmədov, gizir Samir Əhmədov, gizir Arzu Qasımova rəis tərəfindən verilən bütün tapşır-ıqların icrasına məsuliyyətlə yanaşır, kollektiv içində normal münasibətlərin yetkinləşməsi üçün əllərindən gələni əsirgəmirlər.

leytenant N.Ağayeva

NARKOMANİYA - ƏN AĞIR ZƏRƏRLİ VƏRDİŞ!

Narkomaniya - mütəmadi, artan dozada narkotik vasitələrin istifadəsi zamanı, narkotik vasitələrdən psixi və fiziki asılılığın formalaşması ilə xarakterizə olunan xəstəlikdir.

Narkomaniyanın əsas əlamətlərindən biri narkotik vasitələrdən sui-istifadə zamanı reaktivliyin dəyişilməsidir ki, bu özünü narkotik vasitələrə patoloji meyillilik, dəyişilmiş tolerantlıq, narkotik vasitədən imtina zamanı abstinent sindromun inkişafı ilə ifadə edir.

Müqayisəli olaraq narkomaniyanın formalarının və onların inkişafının öyrənilməsi narkomaniya üçün ortaq olan simptomların diaqnostikasında mühüm rol oynayır. Bu qrup simptomlar asılılıq dinamikasını göstərir ki, bu da nəinki narkomaniyanın simptomologiyası, hətta sindromologiyası haqda danışmağa imkan verir. Narkomaniya zamanı aşağıdakı hallar qeyd olunur:

- orqanizmin dəyişilmiş reaktivlik sindromu (qoruyucu reaksiya, tolerantlıq, istifadə forması);

- psixi asılılıq sindromu (obsessiv meyil, intoksikasiya zamanı psixi komfort);

- fiziki asılılıq sindromu (kompulsiv meyil, miqdara nəzarətin itirilməsi, abstinent sindromu, intoksikasiya zamanı fiziki komfort).

Bu üç sindrom böyük narkoloji sindromu təşkil edib, narkomanı sağlam şəxsdən fərqləndirir. Narkoloji sindromun hər bir struktur elementləri narkomaniyanın formasından və prosesin stadiyasından asılı olaraq üzə çıxır. Xəstəliyin inkişafı zamanı qeyd olunan sindromlar eyni vaxtda yaranmır. İlkin olaraq dəyişilmiş reaktivlik və psixi asılılıq sindromu qeyd olunur. Fiziki asılılıq sindromu digər iki sindrom fonunda gec formalaşır.

Bəs narkomaniya müalicəsinin ümumi prinsipləri hansılardır?

Narkomaniya xəstəliyinin müalicəsinin tam kursu dörd mərhələdən ibarətdir. Bunlardan birinci iki mərhələ spesifik tibbi xarakter daşıyır, sonrakı iki mərhələdə isə daha çox tərbiyəvi tədbirlər üstünlük təşkil edir.

Birinci mərhələ - qəbul olunmuş narkotik maddənin parçalanması nəticəsində yaranan zərərli maddələrin orqanizmdən xaric olunması (detoksikasiya). Detoksikasiya aşağıdakı tədbirlərdən ibarətdir:

- orqanizm tərəfindən tam mənimsənilməmiş zərərli maddələrin təmizlənilməsi;

- həyati vacib funksiyaların bərpa edilməsi (qan dövranı, tənəffüs, su-elektrolit balansı və s.);

- xəstənin istifadə etdiyi narkotik maddələrin növündən asılı olaraq orqanizmin toxumaları tərəfindən mənimsənilmiş zərərli maddələrin təmizlənilməsi.

Detoksikasiya prosesində xəstənin narkotik maddə qəbul etməməsi prinsipialdır. Hal-hazırda hamı tərəfindən qəbul olunmuşdur ki, narkotik maddələrin mərhələli qadağası yalnız xəstəliyin ağır hallarında məqsədəuyğundur. Belə ki, abstinent sindromunun inkişafı prosesində epileptik tutmalar kimi həyat üçün təhlükəli hallar yarana bilar. Digər hallarda isə narkotik maddələri onlara uyğun dərman preparatları ilə əvəz edərək, onların qəbulunu birdən dayandırmaq məqsədəuyğundur.

Uzun müddət, hətta bütün həyatı boyu davam edən psixi asılılıqdan fərqli olaraq, fiziki asılılıq bir və ya iki həftə ərzində keçir.

Detoksikasiya prosesi doza aşırımından və ya narkotik maddələrin qəbulunun dayandırılmasından sonra yaranan abstinent sindromu zamanı mütləqdir.

Bundan başqa, müalicənin birinci mərhələsində xəstənin fiziki qüvvəsinin bərpası üzrə tədbirlər həyata keçirilir.

Müalicənin bu fazasında orqanizmin susuzluğunun qarşısının alınması (dehidratasiya) və abstinensiya sindromunun zəiflədilməsi məqsədilə həkimin istifadə etdiyi farmakoloji vasitələr xüsusi rol oynayır.

İkinci mərhələ - zəhərlənmənin nəticəsində yaranan daxili orqanların funksiyalarının pozulması, sinir sisteminin pataloji dəyişiklikləri və digər pozuntuların aradan qaldırılması. Bunlar narkotiklərin zəhərləyici təsirinin və yaxud narkomanların sağlamlıq üçün əlverişsiz olan həyat tərzinin nəticələri ola bilir.

Bu mərhələdə xəstənin müalicəsində tətbiq olunan tibbi tədbirlər xəstənin orqanizmində baş vermiş dəyişikliklərin normallaşdırılmasına və orqanizmdə ümumi möhkəmləndirilməsinə yönəldilir.

Üçüncü mərhələ - vərdişlərin aradan qaldırılması üzrə müvafiq tədbirlər. Müalicənin bu mərhələsində tərbiyəvi tədbirlər üstünlük təşkil edir. Məqsəd - xəstədə narkotik maddələrdən asılılığa mənfi münasibətin yaradılmasıdır. Bu məqsəd tərbiyəvi xarakterli tədbirlər vasitəsilə narkotik maddələrin qəbulunun dayandırılmasına nail olunmasını, xəstənin maraqlarının istiqamətləndirilməsini, onun emosional sferasının, xəstənin özü və ətrafdakıları üçün xeyirli olan dərslərə yönəldilməsini özündə cəmləşdirir. Əlbəttə ki, bunları dərmanlar vasitəsilə həyata keçirmək qeyri-mümkün olduğu üçün həkimin rolu azalaraq psixoloq, psixoterapevt və pedaqoq-resosioloqun tədbirlərinə üstünlük verilir.

Dördüncü mərhələ - narkomanın resosializasiyası. Yenidən tərbiyə tədbirlərini pedaqogikanın resosializasiya sahəsinə aid edirlər. Bu tədbirlərin məqsədi - müalicə - tərbiyəvi şəraitdə insanın normal ictimai həyata qaytarılmasıdır.

Göründüyü kimi, terapevtik kursun təqdim olunmuş mərhələləri vahidlik təşkil edir və onları bir-birindən ayırmaq olmaz. Tibbi tədbirlər tərbiyəvi təsirlərlə birgə tətbiq edilməlidir.

Narkomaniyanın müalicəsi prosesində ən qısa mərhələ-zərərli maddələrin orqanizmdən təmizlənməsi və xəstənin abstinensiya sindromundan çıxması mərhələsidir. Əsasən bundan sonra narkomanın çətin və uzunmüddətli psixi asılılıqdan xilas edilməsi dövrü başlanır.

Narkomaniyaya tutulmuş xəstələrin müalicəsində bir sıra səbəblərə görə çətinliklər yaranır. Əsas səbəblərdən biri narkomanların çoxunun müalicəyə qərəzli yanaşmasıdır. Bu da onunla izah edilir ki, ya onlar asılılıqdan xilas olmaq istəmirlər, ya da həkimlər tərəfindən tətbiq olunan metodlara etibar etmirlər.

Digər səbəb isə qapı" effektinin yaranması zamanı mühitin təsiri nəticəsində abstinensiyanın pozulmasıdır. Bunu narkomanların özləri təsdiq edirlər.

Narkomaniya xəstəliyinin müalicəsinin tam kursu dörd mərhələdən ibarətdir. Bunlardan birinci iki mərhələ spesifik tibbi xarakter daşıyır, sonrakı iki mərhələdə isə daha çox tərbiyəvi tədbirlər üstünlük təşkil edir.

QİÇS-ə yoluxanların 70%-i venadaxili narkotiklərdən istifadə edənlərdir. Burun vasitəsi ilə narkotiklərdən hətta bir dəfə istifadə olunması ildırım sürətli ölümlə nəticələnə bilər, boğulma və ürəyin dayanması kimi hallar ola bilər.

Narkotiklərdən venadaxili istifadə edənlərin çoxu Hepatit C virusu ilə yoluxurlar. Bu çox təhlükəli və qorxulu xəstəlikdir, onun klinik simptomları axırıncı mərhələdə özünü büruzə verdiyindən, müalicənin effekti olmur və ölüm ilə nəticələnir. Narkotik əldə etmək üçün narkoman istənilən kriminal hadisə törətməyə hazırdır. Narkotiklər asılılıq yaratdığından, onlardan yaxa qurtarmaq çox çətindir.

Mütəxəssislər hesab edir ki, narkotiklərlə tanışlığın səbəbləri tütünçəkmə və alkoqolla tanışlığın səbəblərinə çox bənzəyir. Bunlara narkotiklərin dadına baxan dostların təzyiqi, hər şeyi bilmək, dadına baxmaq, təcrübədən keçirmək həvəsi, özünəhörmət və inam qazandırmaq üsulu, problemlərdən qaçmaq məqsədi, təhlükəli vəziyyətdə olmaq arzusu, qanundan kənar olan hər şey həvəsləndirir (avantürizm). Bura bekarçılıq, boş vaxt bolluğu, darıxma və digərləri də aiddir.

Psixoloqların qənaətinə görə, narkomaniya, ümumiyyətlə, zərərli vərdişlər, asılılıqlar, aludəçiliklər insan beynində yara kimidir. Onların müalicəsi aparılmadıqca, o yara sağaldılmadıqca hansısa qabaqlayıcı hərəkətlər zərərli vərdişlərin tərgidilməsinə səbəb ola bilməz.

Bir sözlə, zərərli vərdişlərdən yaxa qurtarmaq üçün insan öz niyyət və düşüncəsini dəyişməlidir. Belə vərdişlərdən yaxa qurtarmağın ən yaxşı yolu yaxşı vərdişlərə yiyələnməkdir: "Məsələn, siqareti tərgidən insan onun yerinə saqqız çeynəməyə, yaxud meyvə suyu içməyə vərdiş edə bilər".

Siqaretin qiyməti nə qədər bahalaşsa da, insanların vərdişlərindən əlçəkmə ehtimalları o qədər azdır. Qadağan olunan, yaxud məhdudlaşdırılan hər şey insan üçün daha şirin olur. Qadağalara əl uzatmaq insanın ruhunda var. "Olmaz" deyilən hər işə maraq göstərmək insanın daxilindən gələn bir hissdir. Bu gün siqaretin qiyməti nə qədər bahalaşır-bahalaşsın, insan əgər çəkmək niyyətindədirsə, onu hökmən əldə edəcək.

Bu gün dünyanın ən böyük problemi narkomaniyadır. Dünyada 110 milyon nəfər ən azı ayda bir dəfə narkotikdən istifadə edir və təxminən 25 milyon nəfər narkoman var. Narkotikin qiyməti nə qədər baha olsa da, ona meyl edən insan həddindən artıq çoxdur. Bu, onu göstərir ki, qiymət artımı bu cür problemlərin, siqaretin, narkomaniyanın, alkoqolizmin qarşısını ala bilməz, əksinə, onun daha da yayılmasına səbəb olar.

Bu gün insanlar arasında ciddiyə alınmayan kifayət qədər zərərli vərdiş var, amma insanlar zərərli vərdiş dedikdə, ya siqareti, ya narkomaniyanı dilə gətirir. Halbuki, ən az onlar qədər insan orqanizminə təsir edən və hər birimizin sahib olduğu bir çox zərərli vərdişlər var.

Ümumiyyətlə, pis vərdişlər - istər narkotik olsun, istər siqaret olsun, istərsə də dərman qəbulu, yuxusuzluq, stress və s. - əsasən cavan nəsli hədəf alır. Ailədən qopmaq, azadlıq, sərbəstlik həvəsində olan gənclər pis mühitə düşməzdən əvvəl özləri özlərini böyüdüklərinə inandırırlar. Əsasən də gənclər "mən cavanam, mənə heç nə olmaz" düşüncəsinə hakimdirlər. Gənclərin pis yönə yönlənməsinə səbəb ailənin də bu yolda olmasıdır: "Siqaret çəkən bir atanın oğlu atasını örnək götürür və siqaretin məsumluğuna inanır. Yaxud mühitində pis vərdişə sahib insanlar varsa, uşaq da istər istəməz özünü buna məcburmuş kimi hiss edir və başlayır.

Uşaqlara qadağan etməklə yox, başa salmaqla zərərli vərdişlərdən yayındırmaq olar. Vərdişi tərgitdirmək ilə vərdişi bir müddətlik unutdurmaq tamamilə ayrıdır. Mühiti dəyişdikdə, yaxud pis insanlardan uzaq saxladıqda uşaq bir müddətlik bu vərdişdən uzaq durur. Mühitinə qovuşduqda isə yaşı neçə olur-olsun, yenidən öz vərdişinə qayıdır. Tamamilə tərgidilən halın isə geri dönüşü nadir hallarda olur.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.

Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.

Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000